# Güclü insan, nəcib xanım



## ◆ Zəriflərin dünyası

**Qadın - ülvilik, zəriflik, gözəllik rəmzi...**
**Qadın - həyatın mənası, bəzəyi...**
**Qadın - Ana. İnsanlığın anası, yeni nəslin tərbiyəçisi...**
**Qadın - yaradılışın özü...**
**Qadın - zərif və bir o qədər də güclü varlıq...**
**Bu gün taleyin güclü etdiyi zərifdən söhbət açacağıq...**

**Qadınlığın ən nəcib xüsusiyyətlərini özündə ehtiva edən, eyni zamanda illərdir çiyinlərində ağır yük daşıyan gül çöhrəli xanımdan... "Zəriflərin dünyası"nda Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor, əməkdar memar, "Şöhrət" ordenli Gülçöhrə Məmmədovanın dünyasına baş vuracağıq...**

*Gülçöhrə Məmmədova*

12 aprel 1953-cü ildə Qərbi Azərbaycanın Vedi rayonunda dünyaya gəlib. 1971-ci ildə Bakı şəhərində orta məktəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutunun memarlıq fakültəsinə daxil olub. 1976-cı ildə yeni yaranmış Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsini bitirib. 1975-ci ilin sentyabrında həmin institutun komsomol komitəsinin katibi seçilib. 1979-cu ildə institutun Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasında assistent vəzifəsində işə başlayıb. 1987-ci ildə həmin kafedranın baş müəllimi, 1991-ci ildə dosenti, 2000-ci ildə isə professoru vəzifəsinə seçilib. 2000-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru təyin edilib.

Elmi fəaliyyəti əsasən Qafqaz Albaniyasının memarlığı və Azərbaycan ərazisində xristian dini memarlığının tədqiqi ilə bağlıdır. Bir sıra abidələrin bərpa və elmi rekonstruksiya layihələrini işləyib. 1985-ci ildə "Qafqaz Albaniyasının Erkən Orta əsrlər xristian memarlığı" mövzusunda namizədlik dissertasiyasını, 1999-cu ildə "Qafqaz Albaniyasının dini memarlığı" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. Milli Məclisin II və IV çağırış deputatı olub. 1985-ci ildən Azərbaycan Memarlar İttifaqının üzvüdür. Beynəlxalq Memarlıq Akademiyasının və Beynəlxalq Mühəndislər Akademiyasının üzvüdür. 2006-cı ildə "Əməkdar memar" fəxri adına layiq görülüb. 2008-ci ildə Fransanın "Akademik Palma" Kavaleri ordeni, 2013-cü ildə "Şöhrət" ordeni, 2016-cı ildə Azərbaycan Prezidentinin fəxri diplomu ilə təltif olunub. 120-dən çox elmi əsərin, 2 monoqrafiyanın, 5 kitabın müəllifidir.



## İncəsənətdən memarlığa...

Deyirlər, yaradıcı ruh insanın dünyaya gəldiyi andan başlayaraq daxili aləmi və xəyal dünyasını formalaşdırır. Əgər bir insan böyük yaradıcı ruha sahibdirsə, sevdiyi işlə məşğul olub, seçdiyi sahənin dərinliklərinə varırsa, həmin yaradıcı ruh mütləq özünü büruzə verəcək. Çünki yaradıcılıq daxildən qaynayan bulaq kimidir, qeyri-ixtiyari üzə çıxır.

Uşaqlıq, məktəb illərindən incəsənətə çox böyük marağı vardı. Bir zamanlar hətta rəssam olmaq keçirdi könlündən. Bütün uşaqlar kimi rəsm çəkməyi sevirdi. Müxtəlif rəssamların həyatı, yaradıcılığı, əsərləri ilə maraqlanır, o barədə kitablar oxuyurdu. Məşhur rəssamların çəkdiyi əsərlərin reproduksiyalarını yığaraq böyük kolleksiya toplamışdı. Bir dəfə məktəbdə onlardan ibarət sərgi də keçirilmişdi. Sonralar rəssamlara həsr olunmuş, müxtəlif rəsm qalereyaları və muzeylər barədə kitab kolleksiyası da yığmışdı. Beləcə, məktəbli çağlarından incəsənət tarixini öyrənməyə başlamışdı. Lakin incəsənətə və təsviri sənətə olan marağı illər keçdikcə dəyişərək memarlığa olan həvəslə əvəzlənirdi. Sanki tale, qismət onu öz gələcəyinə, uğur yoluna doğru aparırdı. Onu öz həyatının memarına çevirirdi...

- Təsviri sənətə marağımın yaranmasında böyük bacımın rolu yüksəkdi. Onun ədəbiyyata, poeziyaya, incəsənətə olan marağı mənə də təsir göstərmiş, nümunə olmuşdu. Həkim olmağına baxmayaraq o, indi də bu həvəsi qoruyub saxlayıb. İncəsənət tarixini öyrəndikcə memarlıq abidələri, keçmişin böyük memarları haqqında məlumatlar da alırdım. Bu, dərs deyildi, məktəbdə məndən bunu heç kim tələb etmirdi. Öz ürəyim istəyən, böyük marağım olan sahə idi. Baxmayaraq ki, nəslimizdə daha öncə memar olmamışdı, heç kim də məni bu sənətə istiqamətləndirmirdi. Amma memarlıq sevdiyim riyaziyyatı və incəsənəti, dəqiq elmləri və yaradıcılığı özündə birləşdirdiyinə görə xoşuma gəlirdi. Odur ki, məktəbin son siniflərində oxuyarkən artıq Memarlıq fakültəsinə daxil olmaq qərarını vermişdim. O vaxt bu fakültəyə daxil olmaq indikindən qat-qat çətin idi. Biz əsas 3 imtahandan - riyaziyyat, fizika, ana dilindən, sonra hərəsi 2 gün olmaqla rəsmdən və rəsmxətdən imtahan verirdik. O zaman memarlıq təhsilinin yaradıcılıq komponentinə xüsusi diqqət yetirilirdi. Qabiliyyət imtahanından aşağı qiymət alan fakültəyə qəbul olunmurdu. Amma mən daxil olan il qabiliyyətli abituriyentlər çox olduğu üçün bizim qrupa planda nəzərdə tutulduğu kimi 25 yox, 30 nəfəri qəbul etdilər. Beləliklə, o vaxt Politexnik İnstitutunun tərkibində olan memarlıq fakültəsinin tələbəsi oldum.

*Bu, həyatının yeni dönəminin başlanğıcı olur. Mükəmməl təhsil, yaradıcılıq, ünsiyyət mühitinə düşür. Öyrənmək, biliyini artırmaq, peşəsinin sirlərinə yiyələnmək eşqilə oxuyur, öz üzərində çalışır...*

- Memarlıq fakültəsində tələbə-müəllim münasibəti çox gözəl idi. Bir çox müəllimlər tələbələrlə ünsiyyət qurmağa, söhbət etməyə, birlikdə ekskursiyalara getməyə, dərslərin mövzusundan kənar söhbətlər edib, gənclərin dünyagörüşünü genişləndirməyə, ixtisasa münasibətlərini formalaşdırmağa diqqət yetirirdilər. Fakültəmizin dekanı Həsən Məcidov, kafedra müdirləri Davud Axundov, Qəzənfər Əlizadə, Tələt Mehdiyev görkəmli memarlar idilər. Valeh Hacıyev, Arif Aslanov, Eldar Kanukov və başqaları o zaman memarlıq fakültəsində fəaliyyət göstərən tələbələr tərəfindən sevilən pedaqoqlar idi. Onların təsiri altında həm gələcəyin memarları, həm də ziyalı kimi formalaşırdıq. Fakültəmizdə istedadlı tələbələr, savadlı gənclər çox idi. Aramızda yarış vardı: bu sessiyadan kim daha yaxşı qiymətlərlə çıxacaq. İxtisas fənlərindən əla qiymət almaq xüsusilə vacib sayılırdı. Amma əksəriyyət yalnız qiymətlə yox, yaradıcılıq göstəriciləri, əl qabiliyyəti, sənət fantaziyası ilə seçilən gələcəyin mütəxəssisləri kimi fərqlənirdi.



## "İslamdan əvvəlki dövrün memarlığı çox az tədqiq olunmuşdu"

*Gülçöhrə Məmmədova isə çalışqanlığı, zəhmətsevərliyi ilə yanaşı fəallığı, təşkilatçılıq bacarığı ilə də seçilirdi. Elə ona görə institutda ictimai işlərlə də məşğul olmağa başlayır. Lakin xəyalına da gətirmirdi ki, tələbə olduğu bu ali təhsil ocağında nə vaxtsa müəllim işləyəcək. Hələlik isə o, yaxşı memar olmağı, sənəti dərindən öyrənməyi hədəfləyən fəal tələbə idi.*

- Memarlıq fakültəsinə bu ixtisasa marağı olmayan gənclər gəlmirdi, yalnız qurub yaratmaq, gözəl evlər layihələndirmək, rahat yaşam mühitini yaratmaq arzusunda olan, memarlığı sevən, yaradıcılıq ehtiyacı olanlar gəlir və bu həvəslə oxuyan tələbələr adətən vəzifə barədə düşünmürdülər. Mən də başqa qrup yoldaşlarım kimi layihəçi memar, yaxud bərpaçı olmaq istəyirdim. Lakin tale elə gətirdi ki, memarlıq tarixi və nəzəriyyəsi ilə məşğul olmağa başladım. Tədqiqat istiqamətim Azərbaycanın memarlıq tarixi, memarlıq abidələrinin taleyi oldu. Bu böyük elm sahəsinin bir mövzusu - Qafqaz Albaniyasının xristian memarlığı daha çox diqqətimi çəkdi. Bu, ötən əsrin 70-80-ci illərinə qədər az tədqiq olunan mövzu idi. İnstitutu bitirəndən sonra gənc müəllim kimi professor Davud Axundovun rəhbərlik etdiyi kafedrada çalışırdım. Davud müəllim Azərbaycanın qədim və ilkin orta əsrlər dövrü memarlığını tədqiq edən, bu mövzuda monoqrafiya nəşr etdirən ilk memar idi. Buna qədər ölkəmizin memarlıq abidələrinə həsr olunan çoxsaylı kitablar və monoqrafiyalar nəşr edilmişdi. Onların içində əhatəliliyi, zənginliyi və elmi dəyəri ilə seçilən M.Useynov, L.Bretanitski və Ə.Salamzadənin müəllifi olduğu 1963-cü ildə nəşr edilən "Azərbaycan memarlığı tarixi" kitabı idi. Orta əsrlər, islam memarlıq tarixini gözəl əks etdirən bu sanballı elmi əsərdə qədim və islamdan əvvəlki dövrün memarlığı barədə cəmi 27 səhifədə məlumat verilirdi. Bu da həmin dövrlərin abidələrinin çox az tədqiq olunmasından irəli gəlirdi. XX əsrin ikinci yarısında aparılan arxeoloji tədqiqatların nəticələri, görkəmli tarixçilərimizin Qafqaz Albaniyası dövrünə aid elmi əsərlərinin nəşri memarlıq tariximizin daha dərin qatlarının öyrənilməsini mümkün etdi. Onu da deməliyəm ki, memarlıq irsimizin yalnız islam dövrü ilə məhdudlaşması fikrinin tərəfdarları da az deyildi. Davud Axundov əsl yenilikçi alim olaraq tarixi və elmi mənbələrin, eləcə də arxeoloji qazıntıların məlumatlarına əsaslanaraq qədim dövrün memarlıq tarixini tədqiq etdi. Nəticədə "Qədim və İlkin Orta əsrlər dövrü Azərbacan memarlığı" monoqrafiyasını nəşr etdirdi. Ondan sonra bir çox tələbələri tərəfindən o dövrlərin müxtəlif mərhələləri daha dərindən tədqiq edilməyə başlandı. Mən isə Qafqaz Albaniyası dövrünün memarlığı ilə bağlı dissertasiya işi yazdım. Bu, aktual, maraqlı və o zaman üçün çox mübahisəli mövzu idi. Mübahisələr yalnız bizim bədnam qonşularımızla yox, bəzi alimlərimiz - tarixçilərimiz, memarlarımızla da olurdu. Əlbəttə, daha çox qonşu respublikalardan olan alimlər bu tədqiqatları qəbul etmək istəmirdilər. Davud müəllim beynəlxalq elmi konfranslarda ermənilərlə, gürcülərlə və onlarla həmfikir olan alimlərlə əsl mübarizə aparırdı, bütün təzyiqlərə dözərək cəsarətlə irəli gedir, ətrafına gəncləri toplayıb tədqiqatlarını davam etdirirdi. Bu, çox vacib bir iş idi. Çünki ərazimizdə olan xristian abidələrini özününküləşdirməyə cəhd göstərən bədnam qonşularımız həmin yerlərin də tarixən onlara məxsus olmasını iddia edirdilər. Davud Axundov kimi fədakar alimlərimiz bu stereotipləri sındırdı və Azərbaycanın çox qədim, rəngarəng, zəngin memarlıq irsinə malik olduğunu sübut etdilər. Davud müəllimin tədqiqatlarını sonradan onun ardıcılları davam etdirdilər. Və illər keçəndən sonra aparılan tədqiqatların nəticəsi olaraq fakültəmizin 8 memar alimi Azərbaycan memarlığının 5 cildlik tarixini yazdı. Onun 1-ci cildi Qədim və Erkən Orta əsrlər dövrü Azərbaycan memarlığına həsr olundu. 1963-cü ildə 27 səhifəyə sığışan tarix, 2013-cü ildə 264 səhifəlik kitabda əks olundu. Bu, asan məsələ deyildi. Bunun üçün onilliklərlə zəhmət çəkilib. Elmi fəaliyyət gərginlik və böyük əmək tələb edir. Xüsusilə də az öyrənilmiş mövzuları, tarixin ağ səhifələrini tədqiq edirsənsə, böyük qüvvə, cəsarət və məqsədyönlü fəaliyyət lazımdı. Mənim bütün elmi fəaliyyətim Qafqaz Albaniyasının memarlığına həsr olunub. Bu dövrün elmə məlum olmayan abidələrini tapmaq üçün ölkəmizin bütün dağ rayonlarını gəzmişəm (bəzilərini bir neçə dəfə), onları tədqiq etmək üçün geniş biblioqrafik və arxiv materiallarını öyrənmişəm. Düşünürəm, bu, çox vacib bir işdi. Həqiqətən də bu mövzu tək Azərbaycan elmi üçün yox, bütövlükdə Azərbaycan tarixi, siyasəti üçün önəmli olan mövzudur.

## "Artıq heç kim demirdi "bu mövzu bizə lazım deyil"

*Hər birimizin həyatında bizə dəstək olan, yol göstərən, uğura aparan yolu yaxınlaşdıran insanlar olur. Bəzən həyatımızın istiqamətini dəyişən, doğru səmtə yönəldən, irəli gemək sürətimizi artıran yaxşılar. Gülçöhrə xanım da həyatında böyük rol oynayan həmin insanları hörmətlə anır.*

- Ali məktəbdə qalmağımın səbəbkarı İnşaat Mühəndisləri İnstitunun ilk rektoru professor Sənan Mustafayev oldu. Əvvəla, məni universitetdə o saxladı və ictimai fəaliyyətimə böyük təsir göstərdi, imkan, şərait yaratdı ki, özümü təsdiq edə bilim. Onun köməyi ilə tək müəllim kimi yox, təşkilatçı kimi də formalaşdım. Sonrakı illərdə elmi fəaliyyətlə birgə universitetin ictimai həyatında, təşkilatçılıq işlərində fəal iştirak edirdim. İnstitutun komsomol komitəsinin katibi seçildim. Əlbəttə, bu, fərqli və gələcək həyatıma təkan verən hadisə oldu. Məni təşkilatçı kimi tək universitetdə yox, ondan kənarda da tanımağa başladılar. Bununla yanaşı, elmi fəaliyyətimdə qarşıda olan mərhələlərdən keçib, mütləq onları başa vurmaq lazım idi. Çünki universitetdə çalışan bir gənc üçün pedaqoji və elmi fəaliyyətlə məşğul olmaq mütləqdir, namizədlik, doktorluq dissertasiyalarını müdafiə etmək lazımdır. Mən də ötən əsrin 80-90-cı illərində, əsasən, bu işlərlə məşğul oldum. Elmi fəaliyyətimdə görkəmli alim Davud Axundovun böyük rolu olub. O dövrdə Davud müəllimin yox, başqa alimin rəhbərlik etdiyi kafedraya düşsəydim, yəqin taleyim başqa cür olardı. 1985-ci ildə namizədlik dissertasiyamı müdafiə etdim. 1997-ci ildə doktorluq dissertasiyamın monoqrafiyasını çap etdirdim. İki il sonra müdafiə etdim. Dissertasiya mövzum Qarabağ hadisələrindən sonra daha çox diqqət cəlb etdi. Artıq heç kim demirdi "bu mövzu bizə lazım deyil".

## "Heydər Əliyev həyatımda dönüş yaratdı"

*Müvəffəqiyyətli doktorluq müdafiəsindən az sonra Gülçöhrə xanım gözlənilməz təyinatla qarşılaşır. Təhsil aldığı, müəllimi, dosenti olduğu ali məktəbə rektor təyin edilir. Və bu qərar onun həyatının dönüş nöqtəsi olur. Artıq qarşıda onu yeni məsuliyyətlər, vəzifələr, öhdəliklər, çətinliklər gözləyirdi. O isə güclü və mübariz qadın olaraq bütün bu işlərin öhdəsindən gəlməyə hazır idi...*





- Bu, Ulu Öndər Heydər Əliyevin seçimi idi. Belə məsuliyyətli vəzifələrə bir çox namizədlər irəli sürülür, müzakirələr aparılır. Amma son qərarı ölkə prezidenti verir. Yəqin universitetimizin rektoru vəzifəsinə də çoxsaylı namizədlər olub. Son nəticə olaraq Ulu Öndər mənim namizədliyim üzərində dayanmışdı. Xalqımız qarşısında misilsiz xidmətləri olan, Azərbaycanı xilas etmiş və inkişafı üçün böyük işlər görmüş Heydər Əliyev hər bir azərbaycanlı üçün əziz insandır. Bununla yanaşı, bir çox insanların şəxsi taleyində olduğu kimi, mənim taleyimdə də Heydər Əliyev dönüş yaratdı və mən bunu heç zaman unutmaram. Ulu Öndərin təyinatı ilə vəzifə almaq böyük şərəf və həm də böyük məsuliyyət idi. Universitetə rəhbərlik, ali təhsil sahəsində təşkilatçılıq - çox məsuliyyətli, çətin vəzifədir. Özü də o dövrdə Azərbaycan təhsilində böyük dəyişikliklər gedirdi. Bütün universitetlər qarşısında vəzifə qoyulmuşdu - yeniləşmək, inkişaf etmək, köhnə sovet sisteminə aid, təhsilimizin beynəlxalq səviyyədən geri qalmasına səbəb olan nöqsanlardan azad olmaq, müasirləşmək lazım idi. Maddi cəhətdən zəif, köhnəlmiş texniki baza, sovet dövründən təmir olunmamış binalar, auditoriyalar, kiril əlifbası ilə yazılmış, böyük hissəsi rus dilində olan dərsliklər, maddi vəziyyətini yaxşılaşdırmaq üçün daha böyük sürətlə inkişaf edən istehsalat qurumlarına işləməyə gedən müəllimlərin universitetdən ayrılması və digər problemlər var idi. Bu problemlərin həlli üçün gərgin işləməklə, dəyişiklərə getməklə, addım-addım normal təhsil mühiti yaratmaq lazım idi. Bu cür çətinliklərin öhdəsindən gəlmək üçün mənim rektor təyin olunmağım böyük etimadın göstəricisi idi. Ulu Öndərin Azərbaycan qadınlarına böyük hörməti vardı. Qadınlara kişilərdən zəif insanlar kimi baxmırdı. Həmişə qadınlara inanıb, etimad göstərir və dəstək verirdi. Rektor olaraq mənim təyin olunmağım da Ulu Öndərin bütövlükdə Azərbaycan qadınına olan hörmətinin, inamının, diqqətinin bir göstəricisi idi. Mən də bütün fəaliyyətim dövründə bu etimadı doğrultmağa çalışmışam. Üstəlik, Heydər Əliyev mənim deputat olmağımı da məsləhət gördü və YAP tərəfindən namizədliyim irəli sürüldü. İkinci dəfə isə 2010-cu ildə Prezident İlham Əliyevin xeyir-duası ilə deputat seçildim. 10 illik deputatlıq fəaliyyəti mənim həyatımda önəmli yer tutub. Bu gün ali təhsil qarşısında daha böyük vəzifələr qoyulub: Qərb təhsilinə inteqrasiya, beynəlmiləşmə, müasir standartlar səviyyəsində mütəxəssis hazırlığı. Prezident İlham Əliyev tərəfindən irəli sürülmüş bu çağırışlar universitetimizin və mənim rektor kimi fəaliyyətimin əsasını təşkil edir.

## "Övladlarım qarşısında olduğu kimi, tələbələrim qarşısında da borcum var"

*Rektor deyir ki, universitetdə dəyişiklik, yenilənmə prosesi bu gün daha sürətlə davam edir. Daha universiteti mərtəbə-mərtəbə deyil, bütün korpusu birdəfəyə təmir etdirməyə gücləri çatır. Bu gün universitet üçün əlavə korpus da tikə bilirlər. Laboratoriyalar üçün yeni avadanlıq almağa maddi imkanları var. Beynəlxalq əlaqələri gündən-günə güclənir. Bəs bir zamanlar auditoriyasında tələbə kimi əyləşdiyi, bu gün isə rəhbərlik etdiyi universitetin tələbələri ilə münasibəti necədir Gülçöhrə xanımın?*



- Çalışıram universitetdə sağlam təhsil mühiti yaradam. Tələbələrlə tez-tez görüşürəm. Qəbuluma gələn tələbələrlə problemlərini səmimi şəkildə müzakirə edirik. Elə edirəm ki, mənimlə danışmağa çəkinməsinlər. Tələbənin hansısa hərəkəti xoşuma gəlmirsə, problemini danışanda görürəmsə günahkar özüdür, bunu səmimiyyətlə deyirəm, eyni zamanda kömək etməyə çalışıram. Başa düşürəm ki, bəlkə də həmin kiçik problemin çözülməsinin o gəncin həyatı üçün həlledici rolu var. Deməli, düzgün istiqamət vermək, mümkünsə, kömək etmək lazımdır. Bu kabinetə gələn heç bir tələbə acı sözlə yola salınmır. Tələbələrlə görüşməyi, onlarla söhbət etməyi çox sevirəm. Hər il birinci kursa qəbul olan tələbələrlə fakültə-fakültə görüşürəm. Düşünürəm ki, tələbələr rektoru, universitet rəhbərliyini tanımalıdırlar və lazım olduqda müraciət etməyə çəkinməməlidirlər.

Bu görüşlərdə mən universitetdə təhsilin qaydaları, tələbə-müəllim münasibətləri, tələbələrin vəzifə və hüquqları barədə onlara məlumat verməyi vacib hesab edirəm. Bundan əlavə, sessiyalar qabağı, yaxud müəyyən vacib mövzularla bağlı görüşlərim olur. Hesab edirəm ki, bunun böyük əhəmiyyəti var. Çalışıram tələbələr tək auditoriyada deyil, dərs saatlarından sonra da universitetdə bir fəaliyyətlə məşğul olsunlar, öz üzərlərində işləsinlər, inkişaf etsinlər, xarici dili, kompüter proqramlarını öyrənsinlər, ictimai fəaliyyətlə məşğul olaraq formalaşsınlar. Nə dərəcədə alınır - bunu tələbələrdən soruşmaq lazımdır. Hər halda buna çox çalışıram. Tələbələr də mənim övladlarımdır. Öz balalarıma nəyi məsləhət görürəmsə, onlara da eyni məsləhəti verirəm və çalışıram dəstək olum. Bura mənim ikinci evimdir. Həyatımın yarısı burda keçib. Ailəmə, uşaqlarıma, evimə nə qədər qayğı göstərirəmsə, onlar üçün narahat olur, lazım olan hər şeyi etməyə çalışıramsa, burdakı tələbələrə, kollektivə qarşı da obyektiv və qayğıkeş olmalıyam. Onlar da mənim ailə üzvlərimdi, onların da qarşısında borcum var.

## "Həyat yoldaşım hər zaman məni başa düşüb"

*Hər qadının həyatda uğur qazanmasının əsas səbəbkarı özüdür. Biliyi, bacarığı, illərin əziyyəti, bəzən yuxusuz gecələri sayəsində karyerada yüksələ, müəyyən zirvəyə çata bilir qadın. Amma bu yolda bir amilin də böyük əhəmiyyəti var - ailənin. Qadının arxasında güclü, ona dəstək olan kişi dayanarsa, həyatda uğur qazanması daha asan və əlçatan olar. Bu baxımdan Gülçöhrə Məmmədova şanslı qadınlardandır.*

- İlk növbədə dünyaya gəlib böyüdüyüm ailəmin, ata və anamın şəxsiyyətinin, onların verdikləri tərbiyənin böyük əhəmiyyəti var. Bizim ailədə təhsilin aliliyi hökm sürürdü. Mənim üçün ilk nümunə və dayaq atam olub. Çox ciddi, tələbkar, hətta zəhmli insan olmağına baxmayaraq, hər zaman məni dəstəkləyib, həmişə onun inamını və qayğısını hiss etmişəm. Heç vaxt biz övladları ondan ağır söz eşitməmişdik, əslində buna ehtiyac da yox idi, bir ciddi baxışı yetərdi. İstər kişi, istər qadın üçün ailənin dəstəyi çox vacibdir. Mənim həyat yoldaşım da hər zaman məni başa düşüb, fəaliyyətimə normal baxıb. "Bu, qadın işi deyil" kimi düşüncələrdən uzaq bir insandır. Mən həmişə işləmişəm, gün ərzində boş vaxtım çox az, gərgin günlərim, dövrlərim isə çox olub. İşin öhdəsindən gəlmək üçün daha çox qüvvə, əsəb, vaxt sərf etmək, yorulmaq lazım gəlib. İnsan qarşısına məqsəd qoyanda, vaxtını düzgün bölüşdürəndə, lazım olmayan şeyləri həyatından atanda hər şey alınır. Sevinirəm ki, bütün gərginliklə yanaşı, ailəmə, övladlarıma lazımi qədər vaxt ayıra bilmişəm. Uşaqlarıma nə verə bilməli idim, vermişəm - tərbiyə, təhsil, həyata düzgün münasibət... Çalışmışam onlara yaxşı nümunə göstərim, təhsilə, kitaba həvəs, insanlara xeyirxah münasibət, zəhmətsevərlik, məsuliyyət aşılayım. Düşünürəm, onlara nəyi verməyə borcluydumsa, əsirgəmədən verə bilmişəm...

Lakin təəssüf ki, hələ də cəmiyyətimizdə "qadın yalnız ailəsi ilə məşğul olmalıdır" deyə düşünənlər də az deyil. Hələ də qızını, yoldaşını təhsil almağa qoymayan ailələr mövcuddur. Hələ də qadının savadlı, təhsilli, işgüzar olmasından qorxan kişilər var. Qorxur ki, ondan uğurlu ola bilər, irəli gedə bilər. Cəmiyyət bunlarla mübarizə aparmalıdır. Azərbaycan qadını böyük potensiala malikdir. Azərbaycan qadını öz ailəsinə, evinə, övladına sadiqdir, həmişə ailəsinin etimadını doğrultmağı bacarıb. İctimai fəaliyyətindən, karyeradakı uğurlarından asılı olmayaraq ailəsi qarşısındakı borcunu heç vaxt unutmur. Bəlkə də üzərinə həddindən artıq yük götürür, özünə daha çox əziyyət verir, həm evdə, həm işdə daha çox zəhmət çəkir. Amma buna qüvvəsi varsa, Allah ona bu ağlı, bacarığı, potensialı veribsə, onun qarşısını kəsmək düzgün deyil. Bizim ölkəmizin də siyasəti buna istiqamətlənib. Qadınların özlərini realizə edə bilməsi üçün çox işlər görülür. Qadının təhsil alması çox vacibdir. Təhsilli qadın övladına düzgün tərbiyə verir, düzgün istiqamətləndirir və daha keyfiyyətli, ağıllı nəsil böyüdür. Hesab edirəm ki, hər xanım təhsil alıb, mütləq bir sənətə yiyələnməlidir. Hər bir xanımın imkanı olmalıdı öz zəhməti ilə çörək pulunu qazansın və heç kimə möhtac olmasın. Belə olan halda ailədə də münasibət daha düzgün, daha bərabər, qarşılıqlı hörmət şəklində qurular, heç kim heç kimdən asılı olub, əlinə baxmaz. Qızların təhsili xalqımızın gələcəyi üçün ən vacib, əhəmiyyətli məsələdir. Arzu edirəm bunu hər ailədə başa düşsünlər. Qadınlar həyatda savadlı olmalı, öz ayaqları üstündə dayanmağı bacarmalıdırlar.

## "İstirahətimi kitabsız təsəvvür etmirəm"

*Gülçöhrə Məmmədova da bir nümunədir. Öz övladları, tələbələri, bütövlükdə öz gücü ilə həyatda nəyəsə nail olmaq istəyən xanımlar üçün. Nəvələri üçünsə o həm də nənədir. Nəvələrilə birlikdə rəsm çəkən, kitab oxuyan, əylənən nənə...*

- Nəvəm Musa bizə gələndə rəngli boya, yaxud karandaşla onu maraqlandıran mövzularda birlikdə şəkillər çəkirik. 14 yaşlı nəvəm Məleyin gözəl rəsm qabiliyyəti var. Düzdür, kompüterə daha çox vaxt ayırır. Amma bütövlükdə dizayn, sənət baxımından qabiliyyətlidir. Düşünürəm, ondan yaxşı memar, yaxud dizayner çıxa bilər. Bunu gələcək göstərər. O ki qaldı özümün rəsmlə məşğul olmağıma, buna təəssüf ki, boş vaxtım olmur. Amma bir gözəl mənzərə görəndə, düşünürəm ki, bunu məmnuniyyətlə çəkərdim... İnsan rəsm çəkdikcə, gördüklərini kağızda əks etdirdikcə, elə bil ətrafı daha yaxşı görür, daha yaxşı dərk edir. Daxilində ona mane olan fikirlərdən, ağırlıqdan azad olur. İnsanların portretlərini çəkmək də çox maraqlıdır. Hesab edirəm ki, insanın portretini çəkmək onu tədqiq etmək kimi bir şeydir. Hər zaman kitab oxumağı çox sevmişəm, indi də boş vaxtlarımı, istirahətimi kitabsız təsəvvür etmirəm.

*Onun ruhunu dindirən ən sevimli məşğuliyyət isə işidir. İllərini, alın tərini, zəhmətini verdiyi və bəhrəsini gördüyü peşəsi. Bu peşədə qazandığı bütün uğurların memarı isə özüdür. Zərrə-zərrə, pillə-pillə bu uğura doğru yol alıb. Bəzən zərif çiyinlərində daşıdığı işin ağırlığını, məsuliyyətini, çətinliyini hiss edib, bəzən yorulub, amma çəkinməyib, heç bir məqamda təslim olmayıb. Bu uzun, incə yolda qarşısına çıxan bütün maneələri əzmkarlığı, gücü, bacarığı, mübarizliyi, yeri gələndə sərtliyi ilə dəf edərək tutduğu yola davam edib. Geriyə çevrilib, qurduğu "həyat layihəsi"nə baxanda bəlkə də hansısa xırda toxunuşlar etmək istərdi, amma bütövlükdə heç nəyi dəyişməzdi... Elə özünün dediyi kimi: "Əlbəttə, həyatda müəyyən məqamlar olur ki, sonra heyifsilənirsən. "Gərək belə etməzdim", "Bunu belə etsəydim, daha yaxşı olardı" deyirsən. Amma bütövlükdə götürdükdə həyatımda heç nəyi dəyişməzdim. Yəqin hər şey elə belə də olmalı idi".*

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***